# Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir

## Gəncənin ilk dəfə səs verəcək gəncləri bələdiyyə seçkilərinə inamla gedirlər






23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Gəncə təşkilatında ilk dəfə səs verəcək seçicilər və partiya tərəfindən namizədlikləri irəli sürülmüş gənclərlə görüş keçirilib.

Görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsinin sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev, YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədr müavini, millət vəkili Xanlar Fətiyev, Gəncə Tibb Kollecinin direktoru Mehman Rzayev, Gəncə Dövlət Universitetinin prorektoru Gülsüm Fətəliyeva çıxış edərək son illər ölkəmizdə aparılan islahatlardan, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin Sədrliyi ilə partiyanın dövlətimizin inkişafına verdiyi mühüm töhfələrdən danışıblar. Natiqlər dövlət başçısı tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, gənclərin idarəetmə orqanlarında və seçki proseslərində iştirakının artdığını qeyd ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığı, hər zaman öndə getdiyi vurğulanıb, əminliklə qeyd edilib ki, 23 dekabr 2019-cu il tarixində Azərbaycan vətəndaşları Yeni Azərbaycan Partiyasına etimad göstərərək ən layiqli namizədlərə səs verəcəklər.

İlk dəfə səsvermə hüququ qazanan gənclər səsvermə qaydaları ilə bağlı suallar səsləndirib və YAP tərəfindən irəli sürülmüş namizədlərə uğurlar arzulayıblar.

## YAP Səbail rayon təşkilatında ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib





23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Səbail rayonunda ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev bu il ilk dəfə səs verəcək olan gəncləri təbrik edərək qeyd edib ki, hər bir müasir demokratik dövlətin siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən seçkilərdə ilk dəfə iştirak etmək və öz siyasi iradəsini nümayiş etdirmək imkanı əldə etmək hər bir gəncin həyatında unudulmaz tarixi hadisədir.

Ş.Hacıyev gəncləri Azərbaycanı gələcəkdə daha böyük uğurlara aparacaq Ulu Öndər Heydər Əliyev yolunu, möhtərəm Prezidentimizin uğurlu siyasətini davam etdirməyə, Liderimiz ətrafında sıx birləşməyə, seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai-siyasi sabitliyin davamlı olması üçün 23 dekabr tarixində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Gəncləri seçkilərdə maksimum fəal olmağa çağıran YAP Gənclər Birliyinin sədri Seymur Orucov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən danışıb və qeyd edib ki, bu gün gənclərə böyük etimad göstərilir. Vurğulanıb ki, ölkəmizdə bələdiyyə institutunun inkişafında və bu sahədə görülən işlərdə gənclərin böyük rolu vardır.

Görüşdə Bibiheybət bələdiyyəsi üzvlüyünə namizədlər - Elmar Məmmədov, Nərgiz Ələkbərova, Rəşad Sadıqov, Nəcəf Mustafayev, Səbail bələdiyyəsi üzvlüyünə namizədlər - Səmədağa Aslanov, Nihad Allahyarlı, Cavid Yusubov, YAP Səbail rayon təşkilatının sədr müavini Mehman İsmayılov, YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Fuad Heydərli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin I kurs tələbəsi Fidan Abbasova və Qərbi Kaspi Universitetinin I kurs tələbəsi Elnur Məhəmmədli çıxış ediblər. Bütün natiqlər əminliklərini ifadə ediblər ki, Yeni Azərbaycan Partiyası indiyədək bütün seçkilərdə olduğu kimi bu bələdiyyə seçkilərində də növbəti möhtəşəm qələbəsini qazanacaqdır.

## YAP Nəsimi rayon təşkilatının qərargahında səhiyyə işçiləri ilə növbəti görüş keçirilib






Dünən Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının qərargahında 23 dekabr 2019-cu il tarixində Azərbaycan Respublikasında keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun səhiyyə işçiləri ilə növbəti görüş keçirilib.

YAP Nəsimi rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı çıxış edərək bildirib ki, toplantının keçirilməsində məqsəd bələdiyyə seçkiləri ərəfəsində rayon sakinlərinin, xüsusilə səhiyyə işçilərinin fəallığının artırılması, seçkilərlə əlaqədar bölgələrdə görüşlərin keçirilməsi və digər məsələlərin müzakirəsindən ibarətdir.

Bütün sahələrdə, o cümlədən səhiyyə sahəsindəki islahatların davamlı şəkildə həyata keçirildiyini ifadə edən YAP Nəsimi rayon təşkilatının sədri qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O, çıxışını davam etdirərək, mütərəqqi siyasətin nəticəsi kimi ölkəmizin səhiyyə sahəsində çalışan siyasi fəalların da partiyanın sıralarında çoxluq təşkil etdiyini vurğulayıb.

Həmçinin o əlavə edib ki, ölkəmizdə bələdiyyə institutunun yeni yaranmasına baxmayaraq, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədi ilə mühüm qanunvericilik bazası formalaşdırılmış və bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır.

Məlahət İbrahimqızı Yeni Azərbaycan Partiyası tərəfindən Nəsimi rayon bələdiyyəsi üzvlüyünə irəli sürülmüş namizədlərlə tədbir iştirakçılarını tanış etdikdən sonra səhiyyə işçilərini qarşıdan gələn bələdiyyə seçkilərində fəal olmağa, YAP tərəfindən irəli sürülmüş namizədlərə səs verməyə çağırıb.

## Sumqayıt şəhərində Corat qəsəbəsinin seçiciləri ilə görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatı qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşünü keçirib.

Şəhərin Corat qəsəbəsinin seçiciləri ilə keçirilən görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov bələdiyyələrin fəaliyyəti ilə bağlı məlumat verib. Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatında yerləşən seçki qərargahının fəaliyyəti ilə bağlı danışan R.Hüseynov təbliğat kampaniyasının uğurla davam etdirildiyini dilə gətirib: **“Partiyamız tərəfindən irəli sürülən namizədlər arasında gənclər üstünlük təşkil edir. Yeni Azərbaycan Partiyası hər zaman gənclərin fəallığının artmasında maraqlıdır. İnanırıq ki, dekabrın 23-də Sumqayıt seçiciləri, o cümlədən Corat qəsəbəsinin seçiciləri Ümummilli Lider Heydər Əliyev siyasi kursuna, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına və dövlət başçımızın Sədri olduğu Yeni Azərbaycan Partiyasına olan inamını və sevgisini növbəti dəfə nümayiş etdirəcəklər. Mən qəsəbə sakinlərini Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıram”.**

Tədbirdə çıxış edən Corat qəsəbə bələdiyyəsinin üzvlüyünə namizəd Elçin Ədilov bildirib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə bütün sahələr inkişaf edib. Çıxış edən Corat qəsəbə bələdiyyəsi üzvlüyünə YAP tərəfindən irəli sürülmüş namizədlər Tural Əlibabayev, Taleh Məmmədov, Mehrab Əliyev, Ağabəy Paşayev seçiciləri seçki günü aktiv olmağa çağırıblar.

# Multikulturalizm Mərkəzi cari ili uğurla başa vurur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə 2014-cü ildən fəaliyyət göstərən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) cari ili uğurla başa vurur. Dövlət başçısının tövsiyəsi ilə BBMM, sadəcə, ölkə daxilində deyil, eyni zamanda, bir sıra xarici ölkələrdə də Azərbaycandakı etno-mədəni və konfessional müxtəliflik, multikulturalizmin dövlət siyasəti müstəvisində həyata keçirilməsi, habelə mədəniyyətlərarası və dinlərarası dialoqda oynadığı qlobal rol mövzusunda konfranslar, “dəyirmi masa”lar, seminarlar, təqdimatlar, görüşlər həyata keçirib. Tədbirlərdə Azərbaycandakı etnik qruplar, onların əsrlər boyu qarşılıqlı anlaşma şəraitində yaşaması, eləcə də multikultural cəmiyyətdəki inteqrasiya və idarəetmə siyasəti barədə geniş məlumat verilib, müzakirələr aparılıb.

2019-cu il ərzində ölkə daxilində gerçəkləşən 40-a yaxın yerli və beynəlxalq əhəmiyyətli tədbir içərisində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Multikulturalizm Mərkəzinin 5 illiyinə həsr edilmiş yubiley mərasimi, “Holokost və Xocalı - müasirlərin gözü ilə” adlı “dəyirmi masa”, “Terror multikulturalizmə qarşı” layihəsi çərçivəsində “1918-ci il mart soyqırımı və yəhudilər” mövzusunda II Beynəlxalq konfrans, V Ümumdünya mədəniyyətlərarası dialoq forumu çərçivəsində “Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti” mövzusunda beynəlxalq “dəyirmi masa”, “Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru” adlı dünya gənclərinin I Forumu, eləcə də “Qafqaz Albaniyası: tarix və müasirlik kontekstində” mövzusunda II beynəlxalq elmi konfransı xüsusi qeyd etmək lazımdır.

Xarici ölkələrdə isə ABŞ-ın Arizona ştatında baş tutan “Multikulturalizm harmoniya və sülhün açarı” adlı beynəlxalq konfrans, Los-Anceles şəhərində “Azərbaycan multikulturalizm modeli”nə həsr olunmuş “dəyirmi masa”, Azərbaycanda qadınlara səsvermə hüququnun verilməsinin 100 illiyi münasibətilə Parisdə keçirilən beynəlxalq tədbir, Almaniyanın Pirna və Drezden Universitetlərində “Cənubi Qafqazda almanların məskunlaşması”, Mərakeş Krallığının İbn Zöhr və Cadi Ayyad Universitetlərində isə “Azərbaycanda dini, etnik, dil müxtəlifliyi və tolerantlıq”, “Azərbaycan multikulturalizm modeli dünya ölkələrinə nümunə kimi” mövzularında təqdim edilən mühazirələr, Ümumukrayna esse müsabiqəsi, Braziliya, Argentina və Uruqvayın ali təhsil ocaqlarında təşkil olunmuş silsilə multikulturalizm seminarları və digər bu qəbildən olan tədbirlər geniş rezonans doğurmuşdu. Bundan başqa, 2019-cu ildə Mərkəzin 9-cu nümayəndəliyi Rumıniyada açılmışdır. Bütün nümayəndəliklərdə ölkəmizlə bağlı əlamətdar günlər xüsusi tədbirlərlə qeyd edilmişdir.

Ənənəvi olaraq, hər il həyata keçirilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərində bu il müxtəlif ölkələrdən, eləcə də Azərbaycandan 200 nəfərədək gənc iştirak etmişdir. Artıq IX dəfə təşkil olunan Beynəlxalq Multikulturalizm Yay və Qış Məktəblərinə bir sıra beynəlxalq qurumlar və fondlar da həmtəşkilatçı kimi qoşulmuşdur.

Cari ildə Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının növbəti qrant müsabiqəsi üçün əməkdalığı çərçivəsində QHT-lər üçün məlumatlandırma sessiyası təşkil olunmuş və müsabiqə elan edilmişdir.

BBMM-in 2015-ci ildən həyata keçirilən “Azərbaycan multikulturalizmi” fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi çərçivəsində hazırda dünyanın 21 aparıcı universitetində Azərbaycan multikulturalizmi fənninin tədrisi davam etmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Təhsil nazirinin əmri ilə 2019-2020-ci tədris ilindən etibarən, ölkəmizin bütün universitetlərində və bütün ixtisaslar üzrə “Multikulturalizmə giriş” əsas fənn kimi tədris olunmağa başlanmışdır. Bu ilin sentyabrında fənni tədris edəcək müəllimlər üçün treninqlər təşkil edilmişdir. Eyni zamanda, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə hazırladığı “Multikulturalizmə giriş” dərsliyi ictimaiyyətə təqdim olunmuşdur.

Cari ildə də Multikulturalizm Mərkəzi multikulturalizm sahəsində aparılan araşdırmaların, eləcə də bu istiqamətdə təşkil olunan yerli və xarici konfrans materiallarının nəşrini həyata keçirmişdir. Fransız, italyan və ispan dillərinə tərcümə edilərək nəşr olunmuş “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Multikulturalizmin Azərbaycan modeli haqqında”, BBMM-in Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təqdim etdiyi ingilis dilində hazırlanmış “Azərbaycan Multikulturalizmi. Etnik müxtəliflik xəzinəsi”, Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuş “Qafqaz Albaniyasının etno-mədəni irsi” adlı kitablar, habelə ali məktəblər üçün rus dilində “Azərbaycan multikulturalizmi” adlı dərs vəsaiti də 2019-cu ildə işıq üzü görmüşdür. Azərbaycan, rus və ingilis dillərində təqdim olunan “Multikulturalizm” jurnalının nəşri cari ildə də davam etdirilmişdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2019-cu il ərzindəki fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq, yerli telekanallar tərəfindən işıqlandırılmışdır. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), eləcə də yerli mətbuat orqanları və onların internet səhifələrində BBMM-in ölkə daxilində, habelə xaricdə keçirilən bütün tədbirləri haqda məlumatlar davamlı olaraq dərc edilərək yayılmışdır.

2018-ci ilin oktyabr ayından etibarən yayımlanan və BBMM-in Azərbaycan Televiziyası ilə birgə telelayihəsi olan “Multikulturalizm” verilişi 2019-cu ildə davam etmişdir. Ayda iki dəfə olmaqla il ərzində 20 televiziya verilişi hazırlanaraq efirə verilmişdir. Verilişlərdə BBMM-in fəaliyyəti - görülən işlər, həyata keçirilən layihələrlə yanaşı, bütövlükdə Azərbaycanın multikulturalizm siyasəti öz əksini tapmışdır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2019-cu il ərzində fəaliyyəti barədə bütün informasiya məlumatları Mərkəzin 3 dildə - Azərbaycan, rus və ingilis dillərində yayılan http://multikulturalizm.gov.az rəsmi saytında, eləcə də rəsmi facebook, Twitter və Youtube səhifəsində yerləşdirilmişdir.

**Billurə Aslanqızı**
**BBMM-in aparıcı məsləhətçisi**